

Vidadi BABANLI

## *Özüm haqqında sözüm*

Yoxdur bir kimsədən giley-güzarı,
Yazıb yaratmaqdır dərdi, azarı.
Gördü ki, tükənir şeirin bazarı
Sınadı qələmi romanlarda o.

Dilinə ömründə yalan gəlmədi,
Yaltaqlıq eləyib üzə gülmədi,
Asan yaşamağı şərəf bilmədi,
İşıqlı yol seçdi dumanlarda o.

Qatlaşdı zəhmətə binadan-başdan,
Halal çörəyini çıxartdı daşdan.
Nə bəxtdən yarıdı, nə dost-yoldaşdan,
Gah itdi, gah batdı gümanlarda o.

Köksündə bir kövrək ürək bəslədi,
Müqəddəs hisslərlə onu bəslədi,
Car çəkib elləri haqqa səslədi,
Yaxşılıq axtardı yamanlarda o.

Döyüşdü, çarpışdı daim həyatla,
Hey qovhaqovlarla, hey çataçatla.
Ömür-gün keçirdi bir təmiz adla
Qarışıq, dolaşıq zamanlarda o.

Adı Vidadidi, soyu Babanlı,
Hər zülmə, zillətə tablı-tavanlı,
Mahalı Qazaxdı, kəndi Muğanlı,
Yaşayır qədərsiz ünvanlarda o.

## *Muğayət olun*

**Uymayın, cənablar, pis əməllərə,
Namusdan-qeyrətdən muğayət olun.
Ər oğlu ərlərin varisləriyik,
Şərəfdən-şöhrətdən muğayət olun!**

**Biz salam vermişik, salam almışıq,
Qayğı göstərmişik, qeydə qalmışıq.
Zülmət beyinlərə ziya salmışıq,
O ali sərvətdən muğayət olun!**

**Kişilər tanınıb təmiz ad ilə,
Əsil-nəcabətlə, yaxşı zat ilə,
Ağılla, idrakla, etiqad ilə
Keçmişə hörmətdən muğayət olun!**

**Mərdlik babalardan əziz mirasdı,
O bizə məxsusdu, o bizə xasdı.
Xalqım ibtidadan qədirşünasdı,
İnsafdan-mürvətdən muğayət olun!**

**Millətim mətindi, sözün doğrusu,
Bir əlində oddu,bir əlində su,
Ürək güvəsidi vicdan ağrısı,
Saflığa rəğbətdən muğayət olun!**

**Babanlıyam, dözüm məziyyətimdi,
Düzlük, əyilməzlik əziyyətimdi,
Eşidin, bu sizə vəsiyyətimdi
Mehri-məhəbbətdən muğayət olun!**

**Ədəbiyyat qəzeti. - 2023. - 9 dekabr, № 47. - S. 13.**